məsi haqqında xüsusi sə- publikada fəaliyyət göstərən



# GƏNCƏDƏ AĞACƏKMƏ AKSİYASI

Gəncədə təbiətin zənginləşməsi, onun ekoloji tarazlığının əsaslı şəkildə bərpası istiqamətində əhəmiyyətli, məqsədyönlü ənənəvi tədbirlər həyata keçirilməkdədir.

İnsanlar böyük ruh yüksəkliyi ilə bu tədbirə qoşulurlar. Füsunkar gözəlliyə, ecazkar təbiətə malik olan, dünyanın ən böyük 4 parkından biri – Heydər Əliyev park-kompleksində, Şəhərin hava limanı istiqamətində, möhtəşəm Nizami Məqbərəsi ətrafında, ümumiyyətlə şəhərin bütün zonalarında mütəşəkkil ağac əkilir, onların qorunması üçün gecikdirilmədən aqrotexniki qulluq göstərilir, damcılama yolu ilə su xətti çəkilir. Ətraf mühitin sağlamlaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması üçün başlanan bu aksiya daha da genişlənərək artıq hektarlarla ərazini tam əhatə edir. Onu xüsusilə qeyd etmək lazımdır ki, ulu Gəncədə ənənəvi olaraq havanın oksigen ilə zənginləşməsində xüsusi rolu olan Eldar şamı, sərv ağacı və əfsanəvi sərinlik yaradan çinar ağacı və könülləri oxşayan dekorativ ağaclar üstünlük təşkil edir. Məhz bunun nəticəsidir ki, artıq şəhər yaşıllığa bürünmüş, münbit, təmiz hava insanların sağlamlığında böyük rol oynayır.

Eyni zamanda müqayisədə son 5 ildə turist axınının çoxalması da buna əyani misaldır. Aksiyaya nümunəvi rəhbərlik edən Gəncə Şəhər Əmək Müfəttişliyinin rəisi Xəqani Səfərov qeyd etdi ki, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının təşəbbüsü və dəstəyi ilə artıq bu ənənə və estafet hər həftə davam etdirilir. 450 hektar ərazisi olan Heydər Əliyev park-kompleksində yeni əkilən ağaclar parkın ərazisini daha da sərinləşdirmiş və gözəlləşdirmişdir. Qışın oğlan çağında belə şəhərin qərb ərazisinin sakinləri burada təmiz hava alır və dincəlirlər. Eyni zamanda Gəncənin girişində, Nizami məqbərəsinin yaxınlığında 300 hektar ərazidə 100 min ağac əkilməkdədir ki, bu da həmin sahədə böyük bir meşə massivinin yaranması deməkdir. Bütün bu proseslər 2016-cı ilin sonuna kimi başa çatdırılacaqdır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Ekologiya məsələləri hər bir ölkə üçün, hər bir vətəndaş üçün vacib olmalıdır. Bu, insanların sağlamlığıdır. Sağlam ekoloji mühit, sağlam hava, təmiz su-bütün bunlar insanın həyatı üçün ən əhəmiyyətli məsələlərdir” kimi çox qiymətli kəlamı hər bir Gəncə vətəndaşının ağac əkməsinə, onun qorunmasına stimul vermişdir.

Bugünkü tədbirdə 9 mindən çox şam və sərv, 3 min qızıl kolu, 2 minə yaxın meyvə və feyxoa ağacları əkilmişdir. Yaşıllaşdırma aksiyası çərçivəsində tədbirlər silsilə şəklində davam etdirilir.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**